*Naşirin xatirəsinə*

Respublika.- 2018.- 28 iyun.- S.8.

# Müasir poliqrafiya sənətinin ustadı



**Elə insanlar var ki, onların haqqında keçmiş zamanda danışmaq olduqca çətindir. Tanınmış naşir və poliqrafçı, Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov da mənim üçün məhz belə unudulmaz insanlardandır. Mən orta məktəb şagirdi olduğum dövrdə o, rayonumuzun gənclər təşkilatının - komsomol komitəsinin rəhbərlərindən biri idi. Buna qədər isə yerli radioda müxtəlif mövzularda reportajlarını dinləyərdim. Jurnalistikaya maraq göstərdiyim üçün yerli qəzeti də, radionu da müntəzəm izlədiyimdən Bəhruz müəllimin imzasını da, səsini də yaxşı tanıyırdım.**

Hər bir rayon mərkəzi kimi, Ağdamda da şəhər camaatı ictimai fəallığı ilə seçilən, irəli çəkilən gənclərin ailələri haqqında məlumatlı olurdu. Altı bacının tək qardaşı olan Bəhruz müəllim çox hörmətli ziyalı ailəsində böyümüşdü, atası Həsən müəllim rayonun nüfuzlu ağsaqqallarından idi. O, övladlarına və şagirdlərinə nümunə olan bir ömür yaşamışdı... Respublika miqyasında tanınırdı, öz dövrünün ən sanballı şəxsiyyətləri - Səməd Vurğun, Süleyman Rəhimov, Əli Vəliyev, Bəxtiyar Vahabzadə və başqaları ilə dostluq edirdi. Sonralar Bəhruz müəllimin “Dünənki sabah” kitabında valideynlərinə həsr etdiyi “Tanrım bərabəri” xatirə-essesini oxuyanda anladım ki, onun zəhmətkeş, vətənpərvər, xeyirxah bir insan kimi yetişməsində, yüksək mənəvi-əxlaqi keyfiyyətləri ilə hamının hörmət və ehtiramını qazanmasında valideyn tərbiyəsi, valideyn nümunəsi nə qədər böyük rol oynayıb.

Yəqin ki, Bəhruz Axundovun tərcümeyi-halını xatırlatmağıma ehtiyac yoxdur. Mətbuatda, internet resurslarında bu barədə yetərincə məlumat var. Onun Ağdamdakı fəaliyyəti ilə bağlı mənim üçün yaddaqalan əsas məqamları qeyd etdim. Amma o vaxt Bəhruz müəllimi şəxsən tanımaq mənə müyəssər olmamışdı...

Biz ilk dəfə Bakıda - “Təhsil” nəşriyyatında tanış olduq: illər keçmişdi və artıq Bəhruz müəllim nəinki respublikamızda, hətta onun hüdudlarından kənarda da öz işini mükəmməl bilən təcrübəli və nüfuzlu naşir kimi tanınırdı. Mən redaksiyanın tapşırığı əsasında kitab nəşrinin vəziyyəti və Bəhruz müəllimin bu sahəyə peşəkar münasibəti barədə yazı hazırlamalı idim...

Təbii ki, ilk növbədə, hər ikimiz üçün əziz və unudulmaz olan ağdamlı günlərimizi xatırladıq, camaatımızın ağrı-acısı ilə bağlı fikirlərimizi bölüşdük. Doğma rayonumuzla bağlı hər bir sözə, məlumata, xatirata çox həssas idi, işğal altındakı yurdumuzun həsrətini əsl Vətən övlad sevgisi ilə çəkir, bu həsrəti ovutmaq üçün nəyi bacarırdısa edirdi: Qarabağ, Ağdam haqqında kitabların nəşrinə təmənnasız yardım etməkdən ta həmyerlilərinin dərd-sərini yüngülləşdirməyə, çətinliyə düşənlərə kömək əli uzatmağadək...

Bəhruz müəllimin nəşriyyat-poliqrafiya sahəsindəki uğurları, xüsusən, kitabçılıq sahəsinin inkişafına verdiyi töhfələr, ən başlıcası isə ictimai-ədəbi mühitdəki yüksək mövqeyi, insanlıq xüsusiyyətləri məndə bir həmyerli kimi böyük qürur hissi doğururdu. O, dövlət müəssisəsində çalışanda da, təşəbbüskar, bacarıqlı bir mütəxəssis kimi öz işini qurub özəl sektorda fəaliyyət göstərəndə də kitab nəşrinə çox böyük məsuliyyətlə və prinsipiallıqla yanaşmışdı... Azərbaycanın müstəqilliyi dövründə işıq üzü görən milli dərsliklərimizin bir çoxunun yüksək zövqlə, poliqrafik baxımdan qüsursuz çap olunmasında Bəhruz müəllimin və başçılıq etdiyi kollektivin böyük əməyi olub.

Yeri gəlmişkən deyim ki, kollektivin hər bir üzvü Bəhruz müəllimə dərin hörmət və ehtiram bəsləyirdi. Çünki onun işçilərlə münasibətinə amiranəlik, inzibatçılıq deyil, səmimi yoldaşlıq, məsləkdaşlıq, qarşılıqlı inam və etibar xas idi; mən özüm bunun şahidi olmuşdum. Bəhruz müəllim hər kəsin qayğısına qalır, iş və istirahət şəraitinin ən yaxşı səviyyədə olmasını təmin edirdi.

Bəhruz müəllim yaradıcısı və rəhbəri olduğu “Təhsil Nəşriyyat-Poliqrafiya” MMC-də yüzlərlə adda dərslik və dərs vəsaitinin, ictimai-siyasi, elmi-kütləvi, bədii-publisistik ədəbiyyatın və akademik nəşrin işıq üzü görməsindən daim qürur hissi ilə söhbət açırdı. Buna da haqqı vardı! Çünki həmin kitablar arasında poliqrafik keyfiyyətinə görə beynəlxalq miqyasda mükafatlara layiq görülənlər, Azərbaycana xoş soraq gələnlər var idi. Naşir kimi gərgin zəhmətlə ərsəyə gətirdiyi kitabların bir çoxunun keyfiyyət göstəricilərinə görə yüksək mükafatlar qazanması onun peşəkarlığına verilən qiymət idi. Görkəmli tarixçi alimlərimiz Yaqub Mahmudov və Kərim Şükürovun Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş “Qarabağ: real tarix, faktlar, sənədlər” kitabı da “Təhsil” nəşriyyatında, Bəhruz müəllimin xüsusi diqqətilə çapa hazırlanıb və ictimaiyyətə təqdim olunub. O, dərsliklərin çapına xüsusi həssaslıq göstərirdi, millətin gələcəyi olan uşaqlar üçün ekoloji baxımdan zərərli, çox ucuz materiallardan dərslik və dərs vəsaiti hazırlayıb satan işbazlara qarşı daim barışmaz mövqedə idi.

Bəhruz Axundov Azərbaycan Yazıçıla Birliyinin və Azərbaycan Ağsaqqallar Şurasının üzvü olmaqla yanaşı, Azərbaycar Naşirlər və Poliqrafçılar İctimai Birliyinə də rəhbərlik edir, nəşriyyat və poliqrafiya üzrə ali təhsilli mütəxəssislərin hazırlanması üçün çox faydalı işlər görür, həm zəruri ixtisas dərsliklərin hazırlanmasına nail olur, həm də bu sahədə dərs deyir, nəzəri-praktik biliklərini həvəslə gənclərə öyrədirdi.

Jurnalistikanın bir qolu sayılan nəşriyyat-poliqrafiya sahəsinə nə qədər bağl olsa da, bu işi nə qədər dərindən bilsə də ömrünün əsas hissəsini onun inkişafına sərf etsə də, Bəhruz müəllim uşaqlıqdar könül verdiyi bədii yaradıcılıqdan, publisistikadan da uzaq qala bilmirdi. Ədəb mühitdə maraqlı məqalələri, publisistik yazıları, şeir və hekayələri ilə tanınırdı. Bu mənada, 2015-ci ildə nəşr etdirdiyi “Dünənki sabah” kitabında onun bədii-publisistik istedadını aydın şəkildə görmək olur. Bəhruz Axundovun səmimiyyəti, alicənablığı, canıyananlığı, təvazökarlığı, bir sözlə, gözəl mənəviyyatı bu kitabda toplanmış yaradıcılıq nümunələrinin hər birində özünü əks etdirirdi.

Düz bir il əvvəl biz bu böyük ziyalını vətəninə, xalqına, dövlətinə sadiq insan itirdik. Cəmi 63 il yaşasa da, Bəhruz müəllim uzun illər boyu unudulmayacaq xoş xatirələr, onu şəxsən tanıyanların hər bir üçün acı nisgil qoyub getdi. Mən əminəm ki, Bəhruz Axundovun naşir-poliqrafçı kimi zəngin təcrübəsi də, jurnalist-publisist kimi yaradıcılığı da gənclərimiz tərəfindən öyrəniləcək, tədqiq olunacaq. Çünki onun həyat və fəaliyyəti, sözün həqiqi mənasında, bir mütəxəssis məktəbdir!

**Möhtərəm RƏCƏBOVA**
**“Respublika”**